AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

FƏLSƏFƏ KAFEDRASI

MİF – B06

“CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI”

Kursu üzrə

(magistratura)

İxtisas – 060202 –Fəlsəfə

PROQRAM

BAKI – 2020

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

FƏLSƏFƏ KAFEDRASI



WPS Office ile Düzenle

MİF – B06

# “CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI”

Kursu üzrə

(magistratura)

İxtisas – 060202 –Fəlsəfə

## PROQRAM

Bakı Dövlət Universiteti rektorunun

17.02.2020-ci il tarixli R/25 saylı əmri

ilə nəşr hüququ verilmişdir

BAKI – 2020


Tərtib edən: fəlsəfə elmləri doktoru,

professor Zeynəddin Camal oğlu Hacıyev

Elmi redaktor: fəlsəfə üzrə fəlsəfə doktoru,

dosent Bilal Xudabaxış oğlu Əlizadə

Rəyçilər: fəlsəfə üzrə fəlsəfə doktoru,

dosent Arif İslam oğlu Tağıyev

fəlsəfə üzrə fəlsəfə doktoru

Nəzakət İsfəndiyar qızı Kərimova




WPS Office ile Düzenle

## İzahat vərəqi

Müasir elmi-texniki və sosial tərəqqi şəraitində magistrlərin cəmiyyətin mənəvi həyatı, onun strukturu və əsas tərəfləri haqqında dərin biliklərə malik olması sosial fəlsəfə üzrə ixtisaslaşan magistrlərin elmi-fəlsəfi dünyagörüşünün formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bu fənnin əsaslarına yiyələnməklə, magistrlər müasir Azərbaycan cəmiyyətinin mənəvi həyatındakı prosesləri, milli mənəvi dəyərləri inkişaf etdirməyin zəruriliyini dərk edirlər.

### Fənnin mənimsənilməsi məqsədləri

Bu fənnin mənimsənilməsi nəticəsində magistrlərdə aşağıdakı istiqamətlər üzrə biliklər, bacarıq və qabiliyyətlər formalaşdırmaq məqsədi güdülür.

- Mənəvi həyatın sistem kimi anlaşılması, onu öyrənməyin əhəmiyyəti və metodologiyası, mənəvi istehsal, mənəvi tələbatlar, mənəvi münasibətlər və ünsiyyətin mahiyyəti;
- İctimai şüur, onun fərdi şüur ilə münasibəti, nisbi müstəqilliyi, strukturu, ictimai psxiologiya və ictimai ideologiya haqqında biliklər.
- İctimai şüurun formaları, siyasi və hüquqi şüur, əxlaq, estetik şüur, elmi şüur, dini şüur, ictimai rəy, kütləvi şüur, sosial normalar, mənəvi mühit və mənəvi dəyərlər haqqında geniş nəzəri təsəvvürlər formalaşdırmaq.
- Müasir Azərbaycan cəmiyyətinin mənəvi həyatı və onun inkişaf istiqamətləri haqqında bilikləri dərinləşdirmək.



WPS Office ile Düzenle

### Fənnin digər fənlər sistemində yeri

Fənn magistr pilləsində sosial fəlsəfə ixtisası üzrə tədris olunan baza fənlərinə daxildir. O, humanitar, sosial və iqtisadi bloklara aid fənnlərlə bilavasitə bağlıdır. Buna görə də onun öyrənilməsi, qeyd olunan sahələrdə qazanılmış bilik və bacarıqlara söykənir.

### Fənnin mənimsənilməsi nəticələri

Fənnin öyrənilməsi prosesində magistrlər lazımi informasiyanı tapmağı, düzgün təhlil etməyi bacarmalı, səmərəli metodlar spektrindən istifadə etməklə alınan nəticələri izah etməyi və müstəqil elmi araşdırmalar aparmağı öyrənməlidir.

Magistr pilləsində fənnin mənimsənilməsi prosesində aşağıdakı göstəricilər inkişaf edir:

1. Universal (ümummədəni)

- Düşüncə mədəniyyəti, informasiyanı qavramaq, ümumiləşdirmək və analiz etmək qabiliyyəti, elmi məqsəd formulə etmək və ona nail olmağın səmərəli yollarını seçmək məharətinə malik olmaq.
- Sosial, humanitar və iqtisadi elmlərin metodlarını sosial və peşəkar məsələlərin həlli prosesində tətbiq etmək.

2. Peşəkarlıq baxımından

- Problemin milli, regional və qlobal xüsusiyyətlərini cəmiyyətin sosiomədəni inkişafının spesifikliyini nəzərə alan elmi və sosial texnologiyaların reallaşdırılmasına hazır olmaq.

### Modulun (fənnin) strukturu və məzmunu.

Fənn üzrə tədris saatlarının ümumi miqdarı – 45, o cümlədən 30 mühazirə və 15 seminar məşğələsi civarında müəyyən edilmişdir.

Sosial fəlsəfə üzrə magistr hazırlığı prosesində bu tədris kursu vacib mərhələlərdən biridir. Burada magistr cəmiyytin mənəvi həyatında baş verən hadisə və prosesləri düzgün anlamaq, onların inkişafını proqnozlaşdırmaq vərdişləri əldə edə bilir.

Təhsil kursunda ictimai elmlər sistemində problemin formalaşması və həlli xüsusiyyətləri izah olunur. Burada müasir sosial praktika ilə bağlılığın təmin olunması vasitələrinə geniş diqqət yetirilir.

### Fənnin tədrisi zamanı magistr bilməlidir.

- Mənəvi sferanın cəmiyyət üçün əhəmiyyətini və rolunu;
- Mənəvi həyatı öyrənməyin metodoloji prinsiplərini;
- Mənəvi həyat sisteminin əsas ünsürlərini;
- Ictimai şüuru, onun nisbi müstəqilliyini və fərdi şüur ilə münasibətlərini;
- Ictimai şüurun strukturunu, burada ictimai psixologiya və ictimai ideologiya pillələrinin qarşılıqlı təsirini;
- Ictimai şüuru formalara ayırmağın kompleks meyarlarını və ictimai şüurun konkret formalarını;



WPS Office ile Düzenle

- Mənəvi mühiti və mənəvi dəyərlərin əhəmiyyətini.

**Fənnin tədrisi zamanı magistr bacarmalıdır.**

- Mənəvi həyatın spesifikliyini və digər sferalar ilə münasibətini açmağı;
- Mənəvi fəaliyyəti, mənəvi ünsiyyəti və mənəvi münasibətləri təhlil etməyi;
- Ictimai şüurun strukturunu, ona qnoseoloji və sosioloji yanaşmanın özünəməxsusluqlarını anlamağı;
- Ictimai psixologiya və ictimai ideologiya səviyyələrinin qarşılıqlı münasibətlərini açıb göstərməyi;
- Ictimai şüurun formalarını və onların hər birinin spesifik təbiətini açmağı;
- Mənəvi dəyərlərin ictimai rolunu araşdırmağı və müasir Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin yerini və rolunu düzgün mənalandırmağı.

**"Cəmiyyətin mənəvi həyatı" fənni üzrə dərs saatlarının bölgüsü**

| № | Mövzular | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1 | Mənəvi həyatı öyrənməyin metodoloji məsələləri. | 2 saat | |
| 2 | Mənəvi fəaliyyət, mənəvi istehsal və mənəvi tələbatlar. | 2 saat | 2 saat |
| 3 | Mənəvi istehlak. Mənəvi münasibətlər. Mənəvi ünsiyyət. | 2 saat | |
| 4 | Ictimai şüur və onun nisbi müstəqilliyi. | 2 saat | 2 saat |
| 5 | Ictimai və fərdi şüur. Ictimai şüurun strukturu. | 2 saat | |
| 6 | Ictimai psixologiya və ictimai ideologiya. | 2 saat | 2 saat |
| 7 | Kütləvi şüurun mahiyyəti və xüsusiyyətləri. | 2 saat | |
| 8 | Ictimai şüurun formaları. Siyasi və hüquqi şüur. | 2 saat | 2 saat |
| 9 | Əxlaqi şüurun mahiyyəti və cəmiyyətdə rolu. | 2 saat | |
| 10 | Elm ictimai şüur forması kimi. | 2 saat | 2 saat |
| 11 | Estetik şüur. Dini şüur. | 2 saat | |
| 12 | Ictimai rəy. | 2 saat | 2 saat |
| 13 | Sosial normalar və onların mənəvi həyatda rolu. | 2 saat | |
| 14 | Mənəvi dəyərlər. | 2 saat | 2 saat |
| 15 | Mənəvi mühit anlayışı. Mənəvi həyatın idarə olunması. | 2 saat | 1 saat |



WPS Office ile Düzenle

| | | |
|---|---|---|
| Cəmi | 30 saat | 15 saat |

**Birinci mövzu:** Mənəvi həyatı öyrənməyin metodoloji məsələləri.

Mənəvi həyatı öyrənməyin əhəmiyyəti. Cəmiyyətin maddi və mənəvi həyatının vəhdəti və nisbi müstəqilliyi. Mənəvi həyatı ifadə edən əsas anlayışlar. Mənəvi sferanın mahiyyəti və xüsusiyyətləri. "Mənəvi həyat" və "mənəvi sfera" anlayışları. "İctimai şüur" və "cəmiyyətin şüuru" anlayışları.

Cəmiyyətin mənəvi həyatına müxtəlif yanaşmalar. Mənəvi həyatın materialist izahı. Mənəvi həyatı dini-fəlsəfi anlamağın rasional tərəfi və məhdudluqları.

Mənəvi həyat çoxsəviyyəli və çoxkeyfiyyətli sistem kimi. Mənəvi həyat sistemin əsas elementləri və səviyyələri, onların qarşılıqlı təsiri və vəhdəti [1], [2], [3].

**İkinci mövzu: Mənəvi fəaliyyət, mənəvi istehsal və mənəvi tələbatlar.**

Mənəvi fəaliyyətin mahiyyəti, maddi fəaliyyət ilə oxşar və fərqli cəhətləri. Mənəvi fəaliyyət insanın və cəmiyyətin mövcudluq üsulu kimi. Mənəvi dəyərlər və şüur məhsullarının yaradılmasında mənəvi fəaliyyətin rolu. Mənəvi fəaliyyətin ictimai və məqsədyönlü xarakteri. Mənəvi – nəzəri və mənəvi – praktiki fəaliyyət, onların spesifikliyi.

Mənəvi istehsal anlayışı, onun mənəvi fəaliyyətdən ayrılmazlığı. Mənəvi istehsalın ixtisaslaşmış, professional xarakteri. Mənəvi istehsalda xalq yaradıcılığının rolu. Mənəvi istehsalın əsas xüsusiyyətləri. Mənəvi istehsal məhsulları və onların istehlakı arasında vaxt ayrılığı məsələsi. Mənəvi məhsulların tükənməzliyi və unikallığı. Mənəvi məhsulların maddi ifadə formaları və cəmiyyətdə yayılması mexanizmi.

Mənəvi tələbatların mahiyyəti və məzmunu. Mənəvi tələbatların obyektiv və subyektiv tərəfləri. Mənəvi tələbatların əsas xüsusiyyətləri. Mənəvi tələbatların təsnifatı. Sağlam və qeyri -sağlam mənəvi tələbatlar. Mənəvi tələbatların və mənəvi istehsalın vəhdəti. Mənəvi tələbatların artması qanunu [1], [2], [3].

**Üçüncü mövzu: Mənəvi istehlak. Mənəvi münasibətlər. Mənəvi ünsiyyət.**

Mənəvi istehlak anlayışı, onun mənəvi həyatda rolu. Mənəvi istehlak mənəvi tələbatların ödənilməsi, mənəvi nemətlərin istifadəsi prosesi kimi. Mənəvi istehlakın əsas xüsusiyyətləri. Mənəvi istehlakın ictimai və fərdi formaları. Mənəvi istehlakın istehsal və tələbatlar ilə vəhdəti.

Mənəvi münasibətlər mənəvi sferanın ayrılmaz tərəfidir. Mənəvi münasibətlərin mahiyyəti və məzmunu. Mənəvi münasibətlərin real xarakteri. Münasibətlərin mənəvi və maddiyə bölünməsi meyarları. Mənəvi (ideoloji) münasibətlərin idraki, dünyagörüşü və tərbiyəvi funksiyaları. Mənəvi münasibətlərin maddi münasibətlər ilə şərtlənməsinin nisbi xarakteri. Mənəvi münasibətlərin təsnifatı və onun çətinlikləri.

Mənəvi ünsiyyət cəmiyyətin varlığının zəruri tərəfi kimi. Mənəvi ünsiyyətin maddi ünsiyyət ilə vəhdəti. Mənəvi ünsiyyət dəyərlərin, məhsulların və psixiki vəziyyətin mübadiləsi kimi.



WPS Office ile Düzenle

Mənəvi ünsiyyətin növləri və həyata keçirilməsi vasitələri. Mənəvi ünsiyyətin səviyyələri və formaları [1], [2], [3].

**Dördüncü mövzu: İctimai şüur və onun nisbi müstəqilliyi.**

Ictimai şüur anlayışının mahiyyəti və həyati mənası. Ictimai şüurun mənəvi həyatda mərkəzi yeri. Ictimai şüurun məzmunun geniş və dar anlamı. Ictimai şüur ilə ictimai varlığın münasibətinin marksist izahının nöqsanlılığı.

Ictimai şüurun obyekti və subyekti məsələsi. Ictimai şüurun idraki, dəyərləndirici və sosial – tənzimləyici funksiyaları. Ictimai şüurun və onun varlıq ilə münaisbətlərinin konkret tarixi xarakteri. Ictimai şüurda inikasetdirici və fəal yaradıcı tərəflərin vəhdəti.

Ictimai şüurun nisbi müstəqilliyi problemi, onun məzmunu. Ictimai şüurun nisbi müstəqilliyinin əsas istiqamətləri. Ictimai şüurun müxtəlif tərəflərinin cəmiyyətin varlığından geri qalması və onu ötüb keçməsi. Ictimai şüurun ictimai varlığa fəal əks təsiri. Ictimai şüurun müxtəlif tərəflərinin qarşılıqlı təsiri və inkişafı qanunauyğunluqları.

Ictimai şüurun varisliyi. Ictimai şüurun yaranmasında əvvəlki "ideya materialına" münasibət. Varislik mənəvi həyatın inkişafı qanunu kimi. Varisliyin mütərəqqi və reqressiv səpkiləri [1], [2], [3].

**Beşinci mövzu: İctimai və fərdi şüur. Ictimai şüurun strukturu.**

Ictimai və fərdi şüur anlayışları, onların qarşılıqlı əlaqəliliyi. Ictimai və fərdi şüurun münasibətlərini birtərəfli anlamağın yolverilməzliyi. Fərdi şüurun mahiyyəti və formalaşması amilləri. Ictimai şüurun fərdi şüura nəzərən ilkin xarakteri. Fərdi şüur məhsullarının ictimai şüura keçməsi mexanizmi.

Ictimai və fərdi şüur arasında fərqlər. Fərdi şüurun həcmcə məhdudluğu. Fərdi şüurun fəaliyyət müddətinin müvəqqətiliyi. Fərdi şüurda köhnəlik qalıqlarının davamlılığı.

Ictimai şüurun strukturunun mürəkkəb və çoxsəviyyəli xarakteri. Ictimai şüurun strukturunun izahına qnoseoloji və sosioloji yanaşma. Qnoseoloji yanaşmanın mahiyyəti və əsas səpkiləri. Ictimai şüurun strukturuna sosioloji yanaşmanın məqsədi və vəzifələri. Qnoseoloji və sosioloji yanaşmanın vəhdəti.

Ictimai şüurun adi və nəzəri səviyyələri. Bu bölgünün əsas meyarları. Adi şüurun mahiyyəti və konkret tarixi xarakteri. Adi şüur sosial həyatı və təbiəti anlamağın ilkin səviyyəsi kimi. Adi şüurun inkişafı qanunauyğunluğu. Adi şüurun praktiki əhəmiyyəti.

Nəzəri şüurun mahiyyəti və spesifik cəhətləri. Nəzəri şüur təbiətin və cəmiyyətin dərindən, sistemli və ümumiləşdirilmiş inikası kimi. Ictimai şüurun nəzəri və adi səviyyələrinin qarşılıqlı əlaqəsi [1], [2], [3].

**Altıncı mövzu: İctimai psixologiya və ictimai ideologiya.**

İctimai psixologiya anlayışı. Ictimai psixologiyanın tarixi şəraitdən, ictimai quruluşdan, cəmiyyətin sosial münasibətlərindən asılı olması. Ictimai psxiologiya və ictimai şüurun digər elementləri. Ictimai psixologiya insanların gündəlik həyat şəraitinin bilavasitə təsiri altında formalaşan hissi və iradi emosional tərəflərin məcmusu kimi. Ictimai psixologiyanın adi şüur ilə oxşar və fərqli cəhətləri. Ictimai psixologiyada gerçəkliyə fəal münasibət bildirilməsi.



WPS Office ile Düzenle

Ictimai psixologiyanın ifadə formaları: sinfi, peşə qrupu psixologiyası. Milli psixologiya. Ictimai psixologiyanın sosial təsir qrupunu şərtləndirən amillər. Ictimai psixologiyanın əsas funksiyaları.

Ictimai ideologiya anlayışı. Ictimai ideologiya, sosial ilə sistemli nəzəri qrupların və cəmiyyətin tələbat və mənafelərinin ifadəsi kimi. Ictimai ideologiyanın nəzəri şüur ilə münasibəti. Ictimai ideologiyanın həqiqliyi və yalanlığı. Ictimai ideologiyanın elmiliyi problemi. Ictimai ideologiyanın əsas funksiyaları.

Ictimai ideologiya və ictimai psixologiyanın fərqli cəhətləri. Onların qarşılıqlı təsiri və vəhdətinin əsas istiqamətləri [1], [2], [3].

**Yeddinci mövzu: Kütləvi şüurun mahiyyəti və xüsusiyyətləri.**

Kütləvi şüur anlayışı. Kütləvi şüurda ictimai şəraitin inikasının spesifik xarakteri. Kütləvi şüur və adi şüur. Kütləvi şüur və ixtisaslaşdırılmış şüur. Kütləvi şüurda ixtisaslaşdırılmış şüurun və adi şüurun özünəməxsus sintez edilməsi. Kütləvi şüurun yaranması xüsusiyyətləri. Kütlə və camaat anlayışları, onların şüurda ifadəsi. Cəmiyyətdə gedən kortəbii proseslər və kütləvi şüur. Kütləvi şüur və liderlər. Kütləvi şüurun dəyişilməsinin əsas istiqamətləri. Kütləvi şüurun dinamikliyi. Kütləvi şüurun mühafizəkarlığı. Müasir cəmiyyətdə baş verən əsaslı transformasiyaların kütləvi şüurda inikası. Kütləvi şüurun cəmiyyətin həyatı və həyat fəaliyyətində rolu [1], [2], [3].

**Səkkizinci mözu: İctimai şüurun formaları. Siyasi və hüquqi şüur.**

İctimai şüurun formaları, onun mühüm struktur bölgüsü kimi. Ictimai şüuru formalara ayırmağın əsas meyarları: İctimai şüur formalarının inikas predmetinə, inikas formasına, öz inkişaf xüsusiyyətlərinə və yerinə yetirdikləri sosial funksiyalara görə müxtəlifliyi. Ictimai şüur formalarının meyarlarını kompleks tətbiq etməyin zərurliyi. Ictimai şüur formalarının yaranma tarixinə görə fərqliliyi. Müxtəlif dövrlərdə “lider” formalar.

İctimai şüurun əsas formaları: siyasi və hüquqi şüur, elmi fəlsəfə, əxlaq, estetik şüur və din. Iqtisadi və ekoloji şüur.

Siyasi şüur anlayışı. Siyasi şüur siniflərin, millətlərin və dövlətlərin əsas mənafelərini ifadə edən ideyalar məcmusu kimi. Siyasi şüurun çoxölçülü xarakteri. Siyasi şüurun sosial qrupun mənlik şüuru və milli mənlik şüuru ilə əlaqəsi. Siyasi şüurun strukturu. Adi siyasi şüur və nəzəri siyasi şüur. Siyasi ideologiya və siyasi psixologiya. K.Manheym ideologiya haqqında Müasir cəmiyyətdə siyasi şüurun rolunun artması.

Hüquqi şüurun məzmunu. Hüquqi şüurda ictimai münasibətlərin hüquqi səpkisinin ifadə olunması. Hüquqi şüurun spesifik cəhətləri. Hüquqi şüurda insanların davranış və hərəkətlərinin məcburi normalara tabe etdirilməsi. Hüquqi şüurun strukturu. Praktiki hüquqi şüur və onun formaları. Hüquqi ideologiya. Müasir cəmiyyətdə hüquqi şüurun rolunun artması. Əhalinin hüquqi mədəniyyətini yüksəltməyin zəruriliyi [1], [2], [3].

**Doqquzuncu mövzu: Əxlaqi şüurun mahiyyəti və cəmiyyətdə rolu.**

Əxlaqi şüur, onun mahiyyəti. Əxlaq ictimai şüur forması və spesifik ictimai münasibətlər tipi kimi. Əxlaq və etika. Əxlaqi və hüquqi normalar, onların oxşar və fərqli cəhətləri. Əxlaq normalarının könüllü xarakteri və insanın sosial mahiyyəti ilə şərtlənməsi. Əxlaqın cəmiyyətdə rolu. Əxlaqın tənzimləyici əhəmiyyəti. Əxlaq qiymətverici şüur forması kimi. Əxlaqi şüurun



WPS Office ile Düzenle

idraki funksiyası. Əxlaqın qeyri-institusional və imperativ xarakteri.

Əxlaqi şüurun strukturu. Əxlaqi hisslər, əxlaqi kateqoriyalar və əxlaqi ideal. Əxlaqi davranış və iradə azadlığı. Əxlaqi məsuliyyət anlayışı. Əxlaqi şüurda sosial – sinfi və ümumbəşəri tərəflər. Əxlaqın əsas kateqoriyaları. Xeyir və şər. Mənəvi borc anlayışı. Ədalət insanların birgə həyatının ümumi əxlaqi sanksiyası kimi. Əxlaqi kateqoriyalar sırasında vicdanın və şəxsiyyətin ləyaqətinin yeri. Xoşbəxtlik kateqoriyası həyatın dolğunluğunun başlıca göstəricisidir. Əxlaqi şüurun humanizmi. Müasir cəmiyyətdə əxlaqi qiymətləndirmə və tənzimləmənin rolunun artması [1], [2], [3].

**Onuncu mövzu: Elm ictimai şüur forması kimi.**

Elmi şüurun gerçəkliyin rasional dərki və sistemlilik keyfiyyətləri. Elm reallığın obyektiv dərk olunmasına və dəyişdirilməsinə yönələn fəaliyyət sahəsidir.

Elmi biliyin səciyyəvi cəhətləri. Elm, biliyin və idrakın xüsusi növü kimi. Elm təşkilati formalara malik xüsusi növlü mənəvi istehsal kimi. Elmi fəaliyyətin kollektiv xarakteri. Elmi biliyin həqiqiliyinin spesifik üsullarla əsaslandırılması. Elmdə xüsusi metodların tətbiqi. Elm subyektinin xüsusi hazırlıq keçməsi zərurəti.

Elmin əsas funksiyaları. Elmi biliyin əsas meyarları: obyektivlik, rasionallıq, obyektin mahiyyətini açmağa yönəlməsi, biliklərin idraki prinsiplər üzrə sahmanlı düzülməsi, alınmış nəticələrin yoxlanıla bilənliyi.

Mənəvi istehsal kimi götürülən elmin əsas formaları: problem, hipotez, nəzəriyyə.

Elmi rasionallıq problemi. Elmi rasionallığın klassik tipi. Elmi rasionallığın qeyri-klassik tipi. Post qeyri-klassik tipli rasionallıq.

Elmi təfəkkürün stili və onda baş verən dəyişikliklər. Elmdə paradiqma anlayışı [1], [2], [3].

**On birinci mövzu: Estetik şüur. Dini şüur.**

Estetik şüurun mahiyyəti. Estetik şüurun obyektiv və subyektiv səpkisi. Estetik şüurun strukturu. Estetik hisslər. Estetik ideal. Gözəllik dünyanı estetik qavramağın əsası kimi.

Estetik şüur və incəsənət. Estetika dünyanı gözəllik baxımından nəzəri mənalandıran elm sahəsi kimi. Estetikanın nəzəri və tətbiqi növləri. Incəsənət estetik şüura əsaslanan praktiki – mənəvi fəaliyyət sahəsi kimi. Incəsənətdə gerçəkliyin obrazlı inikası. Incəsənətin funksiyaları. Incəsənətdə milli ilə ümumbəşərinin münasibəti.

Dini şüurun səciyyəvi cəhətləri. Dini şüurun əsasları. Fövqəltəbii qüvvəyə inam və etiqad. Dini şüurun elm və fəlsəfə ilə münasibəti. Dini şüurun strukturu. Dini hisslər və dini psixologiya. Dini ideologiya (ilahiyyat). Dini şüurda hissi və ideoloji səviyyələrin qarşılıqlı təsiri.

Dinin funksiyaları. Dinin əvəzləyici (kompensasiyaedici) funksiyası. Dinin əxlaqi – sosial funksiyası. Dinin dünyagörüşü və inteqrasiyaedici funksiyaları. Dinin mənəvi mədəniyyət sistemində yeri. Müasir cəmiyyətdə dini şüurda baş verən dəyişikliklərin əsas istiqamətləri [1], [2], [3].



WPS Office ile Düzenle

## On ikinci mövzu: İctimai rəy.

Ictimai rəyin mahiyyəti və məzmunu. Ictimai rəydə kütlənin reallıq hadisələrinə qiymətverici münasibəti. Ictimai rəy cəmiyyətin maraqları, əhval ruhiyyəsi və iradəsinin mühüm göstəricisi kimi. Ictimai rəyin subyekti və obyekti. Ictimai rəy, ictimai şüurun mövcud səviyyəsinin mühüm göstəricisi kimi. Ictimai rəy kütləvi şüurun özünəməxsus ifadə üsuludur. Hegel ictimai rəyi həyata keçirmə vasitələri haqqında. Referendum sivil və demokratik forma kimi. Şayiə ictimai  rəyin qeyri-müəyyən təzahürüdür.

Ictimai rəyin məzmununu şərtləndirən amillər. Sosial maraqları ifadə edən problemlər ictimai rəyin əsas mənbəyi kimi. Adı, həyati faktlar və həqiqətlərin ictimai rəydə rolu. Ictimai rəydə ifadə olunan fikrin, qiymətin, mötəbərlik səviyyəsi. Ictimai rəy insanların davranışı və fəaliyyətini tənzmiləyən spesifik sövqedici qüvvə kimi. Ictimai rəyin məzmununda sosial subyektlərin rəylərinin orta hesabla əks olunması.

Ictimai rəyin funksiyaları. Müəyyən mövqe bildirməklə nəzarət etmə. Ictimai rəyin məsləhətverici və direktiv funksiyaları. Ictimai rəyin formalaşmasının mürəkkəbliyi. Bu prosesdə şüurlu, məqsədyönlü və kortəbii obyektiv tərəflərin qarşılıqlı təsiri [1], [2], [3].

## On üçüncü mövzu: Sosial normalar və onların mənəvi həyatda rolu.

Sosial normalar mənəvi həyatda insanların fəaliyyəti və münasibətlərinin tənzimləyicisi kimi. Sosial normaların ictimai şüurun mühüm struktur bölgüsü olması. Sosial normalarda daxili (inandırma) və xarici (məcburiyyət) motivlərinin sıx əlaqəsi.

Sosial normaların təsnifatı problemi. Hüquqi, əxlaqi, texniki, təşkilati və mədəni normalar. Birgə yaşayış qaydaları və ənənələr. Sosial normaların formalaşması amilləri və mexanizmi. Sosial normaların yaranması obyektiv tələbat kimi. Sosial normalarda insanların idraki bilikləri və həqiqətin rolu. Sosial normalarda obyektiv və subyektiv tərəflərin qarşılıqlı təsiri.

Şəxsiyyətin cəmiyyət normalarına neqativ münasibəti problemi. Onun aradan qaldırılmasında sosial məsuliyyət mexanizminin rolu.

Sosial normaların dinamik xarakteri. Sosial normaların dəyişilməsində humanistləşmə meyli. Sosial normalarda ümumbəşəri mənəvi tərəflərin xüsusi çəkisinin artması [1], [2], [3].

## On dördüncü mövzu: Dəyərlər.

Dəyərlər haqqında fəlsəfi təlimin əsasları. Aksiologiya dəyərlər öyrənən bilik sahəsi kimi. Insan fəaliyyətinin məqsədyönlü xarakteri. Onun müəyyənləşdirilməsi və reallaşdırılmasında dəyərlərin təməl rolu. Dəyərlər sisteminin əsas ünsürləri: ictimai ustanovkalar və qiymətlər, imperativlər və qadağalar. Əxlaqi və estetik kateqoriyalarda ifadə olunan mənəvi dəyərlər. Dəyərlərin təsnifatının çoxaspektliliyi. Predmet dəyərləri və subyekt dəyərləri. Öz məzmununa görə iqtisadi, siyasi, sosial və mənəvi dəyərlərin bir-birindən fərqləndirilməsi. Subyektiv – şəxsi dəyərlər və fövqəlfərdi dəyərlər. Cəmiyyətdə roluna görə mənəvi dəyərlərin utilitar dəyərlərdən üstünlüyü.

Dəyərlər oriyentasiyasının qiymətləndirmə ilə vəhdəti. Qiymətləndirmə dəyərlərin anlaşılması vasitəsi kimi. Qiymətləndirmədə faydalılıq və zərərliyin, zərurilik və lazımsızlığın ifadəsi. Qiymətləndirmənin praktika ilə əlaqəsi. Qiymətləndirmə,



WPS Office ile Düzenle

subyektin seçim etməsi və ona müvafiq hərəkəti deməkdir.

Müasir cəmiyyətdə gedən dəyərlərin yenidən mənalandırılması prosesinin mahiyyəti. Bu prosesin geniş diapazonluğu. Millli – mənəvi dəyərlərə münasibət problemi. Qloballaşma şəraitində milli – mənəvi dəyərlərə göstərilən təhdidlər [1], [2], [3].

**On beşinci mövzu: Mənəvi mühit anlayışı. Mənəvi həyatın idarə olunması.**

Mənəvi mühit anlayışı və cəmiyyətin mənəvi həyatının öyrənilməsində onun mühüm rolu. Mənəvi mühit mövcud ideya və baxışların, təsəvvürlərin və rəylərin bütöv sistemi kimi. Mənəvi mühitin ictimai həyata təsirinin müsbət və mənfi istiqamətləri. Mənəvi mühitdə emosional və psixoloji tərəflərin dominantlığı.

Mənəvi mühitin yeniləşməsi prosesi, onun çoxtərəfli xarakteri. Müasir cəmiyyətdə gedən əsaslı transformasiyalar və mənəvi mühitin təkmilləşməsi. Mənəvi həyatın demokratikləşməsi və mənəvi mühitin təzələnməsi.

Mənəvi həyatın dinamizmi və onu idarə etməyin zərurliyi. Mənəvi həyatın inkişafını şüurlu tənzimlənməyin metodoloji əsasları. Cəmiyyətin inkişafı qanunauyğunluqlarının mənəvi sferada ifadəsinin özünəməxsusluqlarının nəzərə alınması. Mənəvi həyatın idarə olunmasının spesifikliyi və çətinlikləri. Mənəvi həyatın idarə olunmasında elmi metodlardan (modelləşdirmə, eksperiment, proqnozlaşdırma və sair) istifadə olunması [1], [2], [3].

## Seminar məşğələləri

**Birinci mövzu: Mənəvi həyatı öyrənməyin metodoloji məsələləri. (2 saat).**

1. Mənəvi həyatı öyrənməyin əhəmiyyəti. Mənəvi həyata əsas yanaşmalar.
2. Mənəvi həyat sistem kimi və onun ünsürləri.
3. Mənəvi fəaliyyəti. Mənəvi istehsal. Mənəvi tələbat.



WPS Office ile Düzenle

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**İkinci mövzu: Mənəvi istehlak. Mənəvi münasibətlər və mənəvi ünsiyyət. Ictimai şüur və onun nisbi müstəqilliyi (2 saat).**

1. Mənəvi istehlak, münasibətlər və ünsiyyət.
2. Ictimai şüur anlayışı.
3. Ictimai şüurun nisbi müstəqilliyin əsas istiqamətləri.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**Üçüncü mövzu: İctimai və fərdi şüur. Ictimai şüurun strukturu. Ictimai psixologiya və ictimai ideologiya (2 saat).**

1. Ictimai və fərdi şüurun qarşılıqlı əlaqəsi.
2. Ictimai şüurun əsas struktur bölgüləri.
3. Ictimai psixologiya və ictimai ideologiya.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1980.



WPS Office ile Düzenle

3. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**Dördüncü mövzu: Kütləvi şüur. İctimai şüurun siyasi və hüquqi formaları (2 saat).**

1. Kütləvi şüurun mahiyyəti və xüsusiyyətləri.
2. Ictimai şüuru formalara ayırmağın meyarları.
3. Siyasi və hüquqi şüur.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**Beşinci mövzu: Əxlaqi şüur. Elm ictimai şüur forması kimi (2 saat).**

1. Əxlaq şüurun mahiyyəti və strukturu.
2. Əsas əxlaqi kateqoriyalar.
3. Ictimai şüurun elm forması.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.



WPS Office ile Düzenle

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**Altıncı mövzu: Estetik şüur və dini şüur (2 saat).**

1. Estetik şüurun mahiyyəti və strukturu.
2. Estetik şüur və incəsənət, onların funksiyaları.
3. Dini şüurun səciyyəvi cəhətləri, strukturu və funksiyaları.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**Yeddinci mövzu: İctimai rəy. Sosial normalar (2 saat).**

1. Ictimai rəyin mahiyyəti və əsas funksiyaları.
2. Ictimai rəyin formalaşmasının şüurlu və kortəbii tərəfləri.
3. Sosial normların mahiyyəti və mənəvi həyatda rolu.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и



WPS Office ile Düzenle

управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

**Səkkizinci mövzu: Mənavi dəyərlər. Mənavi mühit və mənavi həyatın idarə olunması (1 saat).**

1. Mənəvi dəyərlərin mahiyyəti, təsnifatı və mənəvi həyatda rolu.
2. Mənəvi mühit anlayışı. Mənəvi həyatın idarə olunması.

**Ədəbiyyat**

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.

## Istifadə edilmiş ədəbiyyat

1. Уледов А.К. Структура общественного сознания. М., Наука, 1968.

2. Уледов А.К. Духовная жизнь общества. М., Мысль, 1980.

3. Уледов А.К. Духовное обновление общества. М., Мысль, 1990.

4. Барулин В.С. Социальная философия. М., Велби, 2000.

5. Алексеев В.П. Социальная философия. М., 2005.

6. Ценности в структуре научного познания. М., Мысль, 1990.

7. Пеньков Е.А. Социальные нормы: поведения и управления. М., Мысль, 1990.

8. Грушин Б.А. Общественное мнение М., Мысль, 1989.



WPS Office ile Düzenle

WPS Office ile Düzenle